Azadlıq Radiosu

DÜNYA

# Tramp: ABŞ İrana mütləq qalib gələcək – ya hərbi yolla, ya da 'kağız üzərində'

İyun 05, 2026




ABŞ prezidenti Donald Tramp Ağ evin Oval kabinetində medianın suallarını cavablandırır

ABŞ prezidenti **Donald Tramp** bildirib ki, ABŞ İranla qarşıdurmada ya hərbi yolla, ya da "kağız üzərində" qalib gələcək. O əlavə edib ki, razılaşma əldə olunarsa, İranın ali rəhbəri Müctəba Xamenei ilə görüşə bilər.

**"Axırda bir yolla qalib gələcəyik. Bu, ya hərbi yolla, ya da kağız üzərində olacaq"**, – Tramp Ağ evdə jurnalistlərə söyləyib.

Tramp bildirib ki, M.Xamenei ilə görüşmək istəmir, amma tərəflər razılığa gəlsələr, iki lider görüşə bilər. Xameneinin fevralın 28-də ABŞ-İsrail hava zərbələri nəticəsində ağır yaralandığı bildirilir və o vaxtdan bəri ictimaiyyət qarşısına çıxmayıb.

**"Əgər bu baş versəydi, hörmətlə davranardım. Görüşmək istəmirəm, amma görüşsəydim, bundan şərəf duyardım"**, – Tramp deyib.

**"Razılaşma əldə etsək, onunla görüşməyim mümkündür. Buna etiraz etməzdim"**, – prezident əlavə edib.

Tramp iyunun 3-də demişdi ki, Xamenei danışıqlarda "birmənalı olaraq" iştirak edir. Dövlət katibi Marko Rubio isə bir gün əvvəl bildirib ki, "onun müəyyən səviyyədə getdikcə daha fəal iştirak etdiyinə dair əlamətlər var".

## ABŞ hərbi əməliyyatları bərpa edə bilər

Tramp bildirib ki, indiki atəşkəs dövründə İranın zərbələri nəticəsində ABŞ hərbçiləri həlak olarsa, Amerika qüvvələri hərbi əməliyyatları yenidən başlayacaq. Tehran və Vaşinqton son günlərdə qarşılıqlı hava zərbələri endiriblər. İyunun 3-də İran Küveyt Beynəlxalq Hava Limanına hücum edib; nəticədə bir nəfər ölüb, 63 nəfər yaralanıb.

Tramp iyunun 4-də Ağ evdə jurnalistlərin suallarını cavablandırıb. Suallar Ukraynadakı müharibə, Kuba və qlobal ticarət məsələləri daxil olmaqla müxtəlif mövzuları əhatə edib.

Yaxın Şərqdə kövrək atəşkəs şəraitində sülh danışıqları fasilələrlə davam edir. Tramp bildirib ki, ABŞ-nin İranın zənginləşdirilmiş uran ehtiyatlarını ölkədən çıxarmaq üçün Tehranla hər hansı razılaşmaya ehtiyacı yoxdur.

**"Onu indi də əldə edə bilərik. İstəsək, onların buna mane ola biləcəyini düşünmürəm, amma buna ehtiyac yoxdur. O basdırılıb"**, – deyən Tramp, uranın nəzarət altında olduğunu da iddia edib.

**"Onun üzərində kameralarımız var"**, – o bildirib, amma detallı danışmayıb.

İranın ali rəhbərinin müşaviri Möhsün Rezayi isə bildirib ki, hazırda tərəflərin müzakirə etdiyi anlaşma memorandumu layihəsində aydınlaşdırılmalı olan bəzi məqamlar hələ də qalır. Onun sözlərinə görə, Tramp Tehrana öz şərtlərini qəbul etdirmək üçün təzyiq göstərməyə çalışır və İranın şərtlərinin qeyri-müəyyən qalmasını istəyir.

## Livanda zorakılıqlar fonunda irəliləyiş varmı?

Tramp İsrail və Livan arasında irəliləyiş əldə olunduğuna inandığını bildirib. O deyib ki, Livan sülhə layiqdir və bu məsələ ilə bağlı **"əslində "Hizbullah"la da danışıb"**.

Tramp iyunun 1-də də "Hizbullah"la danışdığını demişdi. Ağ ev isə sonradan bunun vasitəçilər vasitəsilə həyata keçirildiyini açıqlamışdı.

"Hizbullah" terror təşkilatı kimi tanınır və indiyədək ABŞ-nin heç bir prezidenti bu təşkilatla birbaşa və ya vasitəçilər vasitəsilə danışdığını açıq şəkildə etiraf etməyib.

İyunun 4-də "Hizbullah" Livanda yeni atəşkəs təklifini rədd edib, İsrail isə qoşunlarını ölkədən çıxarmayacağını bildirib. ABŞ İranla daha geniş sülh sazişi çərçivəsində Livanda döyüşlərin dayandırılması üçün səylər göstərir. "Hizbullah" ABŞ, İsrail və Livan hökumətinin apardığı danışıqlarda birbaşa iştirak etmir.

Tramp jurnalistlərə İsrailin baş naziri Binyamin Netanyahu ilə də danışdığını bildirib: **"Məncə, irəliləyiş var. Bu proses uzun müddətdir davam edir".**

**"Livanın nəhayət sülhə qovuşması çox gözəl olardı. Livan uzun illərdir hücumlara məruz qalır və həmişə zəif tərəf kimi görünür. Bu vəziyyətin sona çatması çox yaxşı olardı"**, – prezident əlavə edib.

Tehran Livanda atəşkəsin əldə olunmasını Vaşinqtonla mümkün sülh sazişinin şərtlərindən biri kimi irəli sürüb. İran bildirib ki, İsrail qüvvələri Livana hücumlarını davam etdirsə, Tehran prosesə birbaşa müdaxilə edə bilər.


## Buna da bax:

Tramp Müctəba Xamenei ilə bağlı: 'Onunla nə vaxtsa görüşəcəyik'

Təhlilçi: 'ABŞ Yaxın Şərqdə yeni regional nizamın formalaşdığını qəbul etməlidir'

'Hörmüz nüvə proqramından daha təsirli təzyiq vasitəsinə çevrilib' – Müsahibə


AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur